

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 151 (21.303)**

***5 avqust 2015-ci il, çərşənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


*Ölkəmizin müasir inkişaf modeli dünya iqtisadi sisteminə sürətli keçidi təmin edərək müxtəlif sahələrin yeni mərhələyə qədəm qoymasına şərait yaratmışdır. Bu sahələr içərisində miqrasiya proseslərinin müasir tələblər səviyyəsində formalaşdırılması əhəmiyyətli rol oynayır. Xüsusilə son illərdə Azərbaycanda bazar münasibətlərinin inkişafı istiqamətində aparılan iqtisadi islahatlar və bu islahatlar nəticəsində ölkəmizin geosiyasi mövqeyinin gündən-günə möhkəmlənməsi, investisiya maraqları baxımından cəlbedici regiona çevrilməsi miqrasiya axınlarının artmasına səbəb olmuşdur.*

## Elektron xidmətlər miqrasiya proseslərinin yeni mərhələyə qədəm qoymasına imkan verib

Miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi məqsədilə ölkəmizdə, eləcə də muxtar respublikamızda bir sıra zəruri normativ-hüquqi aktlar qəbul edilib, əcnəbilərin ölkəyə gəlməsi və ölkədən getməsi, onların yaşayış yeri üzrə qeydiyyatı sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Miqrantların qeydiyyat və uçotunun təkmilləşdirilməsi, pasport-viza, vergi, gömrük və sərhəd nəzarəti texnologiyalarının unifikasiyası, avtomatlaşdırılması və möhkəmləndirilməsi miqrasiya proseslərinin tənzimlənməsində xüsusi əhəmiyyətə malikdir. Məhz bu baxımdan miqrasiya xidmətlərinin göstərilməsində elektron informasiya resurslarından istifadə vacib məsələdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da informasiya və kommunikasiya texnologiyaları ölkəmizin davamlı və dayanıqlı inkişafının təmin edilməsi, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Bu baxımdan muxtar respublikada da elektron informasiya resurslarının yaradılmasına ciddi diqqət yetirilir. Çünki dövlət-vətəndaş münasibətlərinin informasiya texnologiyaları vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində də bu sahədə mühüm tədbirlər həyata keçirilir.

2015-ci il mayın 27-də adıçəkilən qurum üçün yeni inzibati bina istifadəyə verilmiş, kollektiv üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inzibati binasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan uzun illərdir, blokada şəraitində yaşayır. Ona görə də muxtar respublikaya miqrantların gəlməsi təəccüblü görünə bilər. Lakin bugünkü reallıq ondan ibarətdir ki, Azərbaycanın iqtisadi inkişafı fonunda inkişaf edən Naxçıvan Muxtar Respublikasına qonşu ölkələrdən gələn miqrantların sayı ilbəil artır. Bu da Naxçıvanda miqrasiya tədbirlərinin həyata keçirilməsini zəruri etmişdir. Bu gün dünyada baş verən proseslər, bəzi ölkələrdə terror hadisələrinin törədilməsi bu sahədə ciddi tədbirlərin həyata keçirilməsini, xüsusilə də miqrasiya proseslərinə nəzarətin artırılmasını zəruri edir. Ölkəmizdə bu sahə üzrə qəbul edilmiş qanunvericilik bazası muxtar respublikada da miqrasiya sahəsində qarşıya qoyulan vəzifələrin hüquqi qaydada həyata keçirilməsinə təminat verir".***

Qeyd edək ki, xidmətdə yeni informasiya texnologiyalarının tətbiqi Azərbaycan Respublikasının vətəndaşları, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvafiq xidmətlərdən lazımınca yararlanmaq imkanını təmin etmişdir. Qeydiyyat şöbəsində sənədlərin qəbulu elektron növbəlilik metodu ilə həyata keçirilir. Bunun üçün gözləmə zalında xüsusi avadanlıq quraşdırılmışdır. Həmçinin burada elektron məlumat köşkü də qoyulub ki, bu köşk vasitəsilə miqrasiya xidmətinin müxtəlif sahələrinə aid üç dildə həm yazılı, həm də səsli formatda məlumat verilir. Elektron məlumat köşkləri Sədərək, Culfa, Şahtaxtı sərhəd-keçid məntəqələrində də quraşdırılmışdır ki, bu da muxtar respublikaya gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə qanunvericiliyə uyğun miqrasiya xidmətlərinin göstərilməsi haqqında məlumatları çatdırmaqda əhəmiyyətli rol oynayır. Eyni zamanda xidmətin qeydiyyat zalında 2 ədəd monitor quraşdırılmışdır ki, bu da vətəndaşları miqrasiya sahəsində hüquqi maarifləndirmək məqsədi daşıyır. Bu monitorlar vasitəsilə 3 dildə (Azərbaycan, rus, ingilis) miqrasiya qanunvericiliyi əsasında videoçarxlar nümayiş etdirilir. Bu videoçarxları izləməklə zəruri məlumatları buradan öyrənmək mümkündür. Qeydiyyat şöbəsində pasportların optik oxuyucudan keçirilməklə oxunması isə gecikmə hallarının qarşısının alınmasında müstəsna əhəmiyyətə malikdir. Belə ki, optik oxuyucudan keçirilməklə oxunan pasport haqqında məlumatlar avtomatik olaraq məlumat bazasına ötürülür. Bu da işin daha səmərəli və tez görülməsinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti üçün müəyyən olunmuş konkret xidmətlər üzrə sahələr avtomatlaşdırılmışdır. Bu məqsədlə xidmətin inzibati binasında mərkəzi server sistemi quraşdırılmış, "Elektron xidmətlər" portalı yaradılmış və "Elektron hökumət" internet portalına inteqrasiya olunmuşdur. Bu inteqrasiyanın nəticəsində xidmət tərəfindən olduğu yer üzrə qeydiyyata alınma, müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti yaşamaq, daimi yaşamaq, əmək fəaliyyəti üçün icazələrin verilməsi və əmək fəaliyyəti müddətlərinin uzadılması Azərbaycan Respublikası vətəndaşlığına bərpa edilməsi, miqrasiya orqanlarına qəbul, cərimə və dövlət rüsumlarının onlayn ödənilməsi kimi 9 növ elektron xidmət göstərilir.

Göstərilən elektron xidmət növlərinin ictimaiyyətin istifadəsinə verilməsi və istifadəsinin asanlaşdırılması məqsədilə 2014-cü ilin aprel ayında istifadəyə verilən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin ***www.miqrasiya.nakhchivan.az*** rəsmi internet səhifəsi üzərində yeni bölmələr yaradılmışdır. Bu bölmələrə "Elektron xidmət" və "Onlayn ödəmə" bölmələri də daxildir. Hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs, o cümlədən Azərbaycan Respublikası vətəndaşları da bu xidmət növlərindən istifadə etməklə vaxt itkisi olmadan Dövlət Miqrasiya Xidmətinə müraciət edə bilirlər. İstifadəçilər cərimə və rüsumlarını elektron formada ödəmək üçün "Onlayn ödəmə" bölməsini seçməklə onlara verilmiş qaimə kodu vasitəsilə ödəniş edə bilərlər.

Bundan əlavə, xidmətdə kitabxana və arxiv fondları da elektronlaşdırılmışdır. Ötən dövr ərzində xidmətə müraciət etmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar elektron formatda arxivləşdirilmişdir.

Qeyd olunanlardan əlavə, burada yaradılmış Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə muxtar respublikada baş verən miqrasiya proseslərini bir mərkəzdən idarə etmək, qeyri-qanuni miqrasiya ilə mübarizə, eləcə də təhlükəsizlik tədbirləri həyata keçirmək mümkündür. Həmçinin Vahid Miqrasiya Məlumat Sistemi əcnəbi və vətəndaşlığı olmayan şəxslərin fəaliyyətlərini qanunvericiliyə uyğun olaraq nəzarətdə saxlamağa imkan verir.

Vətəndaşların lazımi informasiyaları əldə etmək hüququnu təmin etmək və Dövlət Miqrasiya Xidməti ilə əlaqəni şəffaflaşdırmaq üçün tətbiq edilən yeniliklərdən biri də "202-Miqrasiya Məlumat Mərkəzi"nin yaradılmasıdır. Əcnəbi və vətəndaşlığı olmayan şəxslər müvəqqəti və daimi yaşamaq üçün icazənin, habelə Azərbaycan Respublikasına gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, iş icazəsinin verilməsi, o cümlədən vətəndaşlıq, qaçqın statusunun müəyyənləşdirilməsi və bu kimi hallarla bağlı ətraflı informasiya almaq istəyən şəxslər adıçəkilən mərkəzə müraciət edə bilərlər.

Tətbiq edilən yeniliklərdən biri də xidmətin elektron poçt ünvanına daxil olan SMS xidmətidir. 2015-ci ilin yanvar ayından "Naxtel" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, muxtar respublikada ilk dəfə olaraq Toplu SMS xidməti istifadəyə verilmişdir. Bu xidmətin istifadəyə verilməsi ilə Dövlət Miqrasiya Xidmətinin elektron poçt ünvanına daxil olan müraciətlərə müvafiq bildirişlər müraciət edənlərin mobil telefonlarına qısa mesaj şəklində göndərilir. Bu da vətəndaşların sorğularına verilən cavabların daha operativ olmasını təmin edir.

Bəli, bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin hərtərəfli fəaliyyəti üçün yaradılmış şərait bu sahəyə göstərilən dövlət qayğısının nəticəsi olmaqla yanaşı, muxtar respublikada miqrasiya proseslərinin yüksək səviyyədə həll olunmasına da imkan verir. Muxtar respublikanın mühüm geostrateji mövqedə yerləşməsi, regionun hərtərəfli inkişafı yuxarıda qeyd olunduğu kimi miqrasiya axınlarının da sürətlənməsinə gətirib çıxarır. Ancaq yaradılmasından çox qısa bir dövr keçməsinə baxmayaraq, bu sahənin hərtərəfli inkişafı istiqamətində atılan addımlar, müasir informasiya texnologiyalarının tətbiqindən səmərəli istifadə miqrasiya proseslərinə nəzarət funksiyasının daha səmərəli həyata keçirilməsinə şərait yaradır.

**Səbuhi HƏSƏNOV**

## Ötən ay 23 min 415 sərnişin hava nəqliyyatı xidmətindən istifadə edib

***Muxtar respublikada hava nəqliyyatı sisteminin inkişafı diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, hər ötən ay bu xidmətdən istifadə edənlərin sayı artır.***

İyul ayında yerli hava xətti ilə 22 min 537 sərnişin, 390 min 959 kiloqram baqaj, 65 min 394 kiloqram yük və 1247 kiloqram poçt daşınması həyata keçirilmişdir. Xidmətdən istifadə edənlərin sayının artmasını beynəlxalq hava xətləri üzrə uçuşlara da şamil etmək olar. Belə ki, bəhs olunan dövrdə Naxçıvan-Moskva istiqamətində 284 sərnişin, 3956 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə isə 594 sərnişin və 6852 kiloqram baqaj daşınmışdır.

Daşımaların vaxtında və təhlükəsiz təmin edilməsi məqsədilə bütün xidmətlərin nümunəvi təşkili nəzarətdə saxlanılmışdır. Bu dövrdə uçuş-enmə zolağı və perronda təmir işləri görülmüş, transformator və işıqlandırma avadanlıqlarının sazlığı təmin edilmişdir. Hava hərəkətini idarəetmə məntəqəsində yeni sistemin quraşdırılması üçün 900 metr uzunluğunda fiber-optik kabel xətti çəkilmiş, müasirtipli yeni işıq-siqnal idarəetmə sistemi quraşdırılmışdır. Hava gəmilərinə texniki xidmət işləri də təlimata uyğun yerinə yetirilmişdir.

İyul ayında aerovağzal binasında yenidənqurma işləri davam etdirilmiş, xüsusi avtonəqliyyat xidməti və hərbi komendantlıq binalarında təmir işləri aparılmışdır. Bundan başqa, hava limanı kompleksinin bütün binalarında, o cümlədən Şərur və Ordubad şəhərlərindəki aviakassalarda sistem və avadanlıqlara mütəmadi texniki baxış keçirilmiş, maşın-mexanizmlərin, nasosların, istilik, işıq və havalandırma sistemlərinin normal fəaliyyəti təmin edilmişdir.

Ötən ay xidmətin nümunəvi təşkili və təhlükəsizliyin təmin olunması məqsədilə təlimlər də davam etdirilmiş, işçilər aerovağzal binasında yeni quraşdırılmış sərnişin körpüsü və teleskopik trapların istismarı mövzularında keçirilən kurslarda iştirak etmişlər. Sahələrdə şəxsi heyətlə profilaktik söhbətlər davam etdirilmiş, taktiki məşğələlər keçirilmiş, işçilərə təhlükəsizlik texnikası və yanğın mühafizəsi qaydaları izah edilmişdir.

***Naxçıvan Beynəlxalq Hava Limanı***

## Avro-4 ekoloji normasına uyğunluğu Naxçıvanda da müəyyən etmək olur

*Ölkə ərazisində dövriyyəyə buraxılan avtonəqliyyat vasitələrinə ötən ilin aprel ayının 1-dən Avro-4 ekoloji normaları tətbiq edilir. Məqsəd avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrin miqdarının azaldılmasından və ekoloji vəziyyətin yaxşılaşdırılmasından ibarətdir. Avro-4 standartlarının tətbiqi, həmçinin ölkənin avtomobil parkının yenilənməsinə və daha yeni avtomobillərlə təchiz olunmasına şərait yaradır.*

Ölkə ərazisinə idxal olunan avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrə dair tələblərin Avro-4 ekoloji normalarına uyğunluğu gömrük rəsmiləşdirilməsi zamanı müəyyən olunur. Qeyd edək ki, ölkə üzrə avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi iki yerdə – Bakıda və Naxçıvanda həyata keçirilir. Bu vaxta qədər muxtar respublikada rəsmiləşdirilən avtonəqliyyat vasitələrinə Avro-4 ekoloji normasına uyğunluqla bağlı sertifikat Azərbaycan Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsinə müraciət əsasında verilirdi. Məlumat üçün bildirək ki, Naxçıvan Gömrük Ekspertizası İdarəsi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən akkreditasiya olunub. İndi həmin qurum avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrin miqdarının təyini analizlərini apararaq onlara uyğunluq sertifikatı vermək səlahiyyətinə malikdir.

Naxçıvan Gömrük Ekspertizası İdarəsi üçün alınıb quraşdırılmış "BOSCH" markalı analizator cihazı həm benzin, həm də dizel yanacağı ilə işləyən avtonəqliyyat vasitələrindən atmosferə atılan tullantı qazlarında karbon qazı, dəm qazı, karbohidrogenlər, oksigen və azot oksidinin miqdarını müəyyən etməyə imkan verir. Ölçmələrin dəqiq aparılması üçün cihaz avtonəqliyyat vasitəsinə qoşulur və bu yolla texniki göstəricilərlə bağlı lazımi məlumatlar cihaza ötürülür. Ölçmə prosesi cihazın verdiyi komandalara görə aparılır. Çap olunan nəticələrə əsasən, avtonəqliyyat vasitəsinin hansı ekoloji sinfə mənsub olması asanlıqla və operativ şəkildə müəyyən olunur. Bəzən avtonəqliyyat vasitəsinin mühərriki Avro-4 standartına cavab versə də, avtomobildəki hər hansı nasazlıq ucbatından tullantı qazlarının normalara uyğun olmadığı aşkarlanır. Bu zaman avtonəqliyyat vasitəsi sahibindən nasazlığın yerində aradan qaldırılması tələb edilir, bu mümkün olmadıqda isə, avtonəqliyyat vasitəsi ölkə ərazisində dövriyyəyə buraxılmır.

Avtonəqliyyat vasitələrinin hansı ekoloji sinfə mənsub olmasının müəyyənləşdirilməsi və Avro-4 standartlarına uyğunluqla bağlı sertifikatın verilməsi elektron qaydada həyata keçirilir. Belə ki, sərhəd gömrük orqanları tərəfindən sərhədi keçən avtonəqliyyat vasitələri ilə bağlı gömrük orqanlarının vahid avtomatlaşdırılmış idarəetmə sistemi (VAİS) üzərindən verilmiş elektron sorğu Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən dəyərləndirilərək dərhal cavablandırılır. Uyğunluq sertifikatı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə elektron qaydada həyata keçirilən məlumat mübadiləsi əsasında verilir.

Sertifikatlaşdırma orqanı kimi akkreditasiyadan keçən Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən nəinki ölkəyə gətirilən, həmçinin daxili bazarda istismar, satış və ya digər məqsədlər üçün istifadəsi nəzərdə tutulan avtonəqliyyat vasitələrinin standartlara uyğunluğu müəyyən olunur, həmçinin buraxılış tarixindən bir il ötməmiş avtonəqliyyat vasitələrinin tipinin təsdiqi üzrə sertifikatlaşdırma işi həyata keçirilir. Bu isə Naxçıvan Muxtar Respublikasında dövriyyəyə buraxılan bütün avtonəqliyyat vasitələrinin Avro-4 ekoloji sinfinə uyğunluğunun yerindəcə yoxlanılmasına, atmosferə atılan zərərli maddələrin miqdarını tənzimləyən ekoloji standartların tətbiqinə daha ciddi nəzarət etməyə imkan verir.

**Xəbərlər şöbəsi**

*Naxçıvan bu günü ilə fəxr etdiyi kimi, keçmişi ilə də qürur duyur. Bu torpaq siyasi xadimlər, qəhrəmanlar, memarlar, ədiblər, yazıçılar, sənətkarlar yetirmişdir. General Cəmşid Cəfərqulu xan oğlu Naxçıvanski də belə görkəmli şəxslərdən biri olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Cəmşid Naxçıvanskinin böyük xidmətlərini nəzərə alaraq "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il aprelin 2-də Sərəncam imzalayıb. Sərəncamda deyilir:* ***"Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksəkixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir".***



*Cəmşid Naxçıvanski – 120*

# Görkəmli sərkərdənin döyüş yolu arxiv sənədlərinin dili ilə

Görkəmli sərkərdəyə böyük diqqət və ehtiramın ifadəsi olan bu sərəncama əsasən onun yubileyi ölkəmizin hər yerində müxtəlif tədbirlərlə qeyd olunur. Cəmşid Naxçıvanskinin yubileyinin Naxçıvan Muxtar Respublikasında da keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib. Cəmşid Naxçıvanskinin zəngin və şərəfli döyüş yolunu bugünkü nəslə yaxından tanıtmaq üçün muxtar respublikamızda da silsilə tədbirlər həyata keçirilir.

Cəmşid Naxçıvanskinin fəaliyyəti müxtəlif dövrlərdə Ə.Əliyev, A.Cəfərov, Ş.Nəzərli, M.Quliyev və başqaları tərəfindən dövri mətbuatda işıqlandırılmışdır. Xüsusilə Qafqazşünas alim, Kəngərli generallarının tədqiqatçısı R.N.İvanov tərəfindən general C.Naxçıvanski haqqında yazılmış "Sovet İttifaqı adından" ("Именем Союза Советских. Жизнь и гибель комбрига Нахичеванского". 2007-ci ildə çapdan çıxıb) kitabı qəhrəmanın döyüş yolu, hərbi xidmətləri, eləcə də taleyi ilə bağlı arxiv sənədlərinə əsaslanır.

Cəmşid Naxçıvanski ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində üzə çıxmamış bir neçə sənədə rast gəldik. Həmin sənədlərdən biri C.Naxçıvanskinin 3 oktyabr 1916-cı ildə İrəvan qubernatoruna qardaşı Teymur xanın cənazəsinin Naxçıvana gətirilməsi ilə əlaqədar xahişnaməsidir. Xahişnamədə yazılır: *"Dünən mənim qardaşım, İrəvan gimnaziyasının tələbəsi Teymur xan Naxçıvanski özünü güllələyib. Mərhum qardaşımın meyitini Naxçıvan şəhərinə aparmağa icazə verməyinizi xahiş edirəm. Kornet Naxçıvanski"* (*Kornet* çar süvari qoşununda birinci zabit rütbəsi deməkdir).

Teymur xan Naxçıvanskinin cənazəsinin Naxçıvana aparılması üçün qubernator tərəfindən 4 oktyabr 1916-cı il tarixdə Cəmşid xan Naxçıvanskiyə verilmiş şəhadətnamədə göstərilir: *"Verilir tatar (Azərbaycan) atlı polkunun korneti Cəmşid xan Naxçıvanskiyə. Qardaşı, İrəvan kişi gimnaziyasının yetirməsi və İrəvan şəhərində özünü güllələmiş Teymur xan Naxçıvanskinin meyitini metal tabutda Naxçıvan şəhərinə aparmağa icazə verilir. Bu, imza və möhürlə təsdiq olunur".*

Çox təəssüflər olsun ki, Teymur xanın ölümü ilə bağlı istintaq materiallarını əldə edə bilmədiyimizdən bizim üçün onun özünəqəsdinin səbəbləri qaranlıq olaraq qalır. Görəsən, Teymur xan niyə özünə qəsd edib? Bəlkə, ermənilər tərəfindən öldürülüb?

Tarixi sənədlərdə Cəmşid Naxçıvanskinin bir hərbçi kimi Avstriya və Rumıniya cəbhələrində şücaətlə vuruşaraq 3 dəfə yaralandığına rast gəlinir. Həmin vuruşmalardakı rəşadətli döyüşlərinə görə C.Naxçıvanski II, III, IV dərəcəli "Müqəddəs Anna", II və III dərəcəli "Müqəddəs Stanislav", IV dərəcəli "Müqəddəs Vladimir", IV dərəcəli "Müqəddəs Georgi" ordenləri və "Müqəddəs Georgi Silahı" ilə təltif olunmuş və ona gümüş qılınc bağışlanmaqla podpolkovnik rütbəsi verilmişdir.

C.Naxçıvanski hərbi xidmətə erkən başlayaraq sıravi əsgərdən diviziya komandiri rütbəsinədək böyük bir yol keçmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra eskadron komandiri C.Naxçıvanski 1920-ci il aprelin 28-də XI Qızıl Ordunun tərkibinə daxil olan Qarabağ polkuna komandirlik etmiş, sonra Azərbaycan Hərbi Məktəbi rəisinin köməkçisi, Azərbaycan atıcı briqadasının komandiri təyin edilmişdir. Bir çox döyüşlərdə C.Naxçıvanskinin hərbi istedadı özünü bütün dolğunluğu ilə göstərmişdir. Kommunist Partiyası onu 1921-ci ilin sentyabrında Qızıl



Ordunun birinci milli dəstəsi olan Azərbaycan atıcı diviziyasına komandir göndərmişdir.

C.Naxçıvanskinin rəhbərlik etdiyi həmin diviziya Qırmızı Bayraq ordenli Qafqaz Ordusunun tərkibində döyüş qabiliyyətli diviziyalardan biri sayılırdı. Bir çox manevrlərdə və taktiki təlimlərdə iştirak etmişdi. XI Qızıl Ordunun köməyi ilə əks-inqilabçı quldur dəstələrini darmadağın etmiş, dəfələrlə Hərbi İnqilab Şurası və SSRİ Xalq Müdafiə komissarı tərəfindən yüksək qiymətləndirilmişdir.

C.Naxçıvanski öz zəngin təcrübəsini və biliyini əsgər və komandirlərə səxavətlə öyrədirdi. Onun rəhbərliyi altında sovet dövlətinin müdafiə qabiliyyətini möhkəmləndirmək sahəsində səmərəli iş aparılmış, ilk hərbi komissarlıqlar yaradılmışdır.

Cəmşid Naxçıvanskinin sovet hakimiyyətinə dərin sədaqəti, habelə yüksək hərbi biliyi və istedadı Qafqaz Ordusu komandanlığının diqqətini cəlb etmiş, o, Azərbaycan Hərbi Məktəbinə rəis təyin olunmuşdur.

Azərbaycan briqadasının bazası əsasında diviziya yaratmaq işində xidmətlərinə görə Azərbaycan Hərbi və Dəniz komissarının 19 dekabr 1921-ci il tarixli əmri ilə C.Naxçıvanskiyə təşəkkür elan edilmiş və gümüş qılınc hədiyyə verilərək o, təzə yaradılmış dağ atıcı diviziyasına komandir təyin edilmişdir.

1923-cü ildə C.Naxçıvanski təhsilini artırmaq üçün V.İ.Leninin təşəbbüsü ilə yaradılmış Fəhlə-Kəndli Qızıl Ordusunun Ali Hərbi Akademiyasına oxumağa göndərilmiş və oxuduğu müddətdə diviziya komandiri vəzifəsində qalmışdır.

1923-cü ildə Moskvada Fəhlə-Kəndli Qızıl Ordusunun Ali Hərbi Akademiyasını bitirənlərin çəkdirdikləri fotoşəkildə adları hərb tarixinə həkk olunmuş sovet sərkərdələrinin, o cümlədən V.K.Blüxer, Y.F.Fabritsius, Q.İ.Kulik, Y.Y.Latsis, N.A.Nestrovski, A.Q.Şirmaxer və başqaları ilə bərabər, Azərbaycan atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanski də vardır.

General-leytenant Yaqub Çanışev C.Naxçıvanski haqqında yazmışdır: *"Mən ilk dəfə Cəmşid Naxçıvanski ilə 1920-ci ildə Şərq xalqlarının birinci qurultayında görüşdüm... Fasilə vaxtı onunla N.Nərimanovun qurultaydakı çıxışından, 26 Bakı komissarının dəfn mərasimindən, İran inqilabçılarına kömək üçün qoşunlarımızı yürüşə necə hazırladığımızdan geniş danışdıq... Onunla bir də 1923-cü ildə Ali Hərbi Akademiyada kursda olarkən görüşdük.*

*C.Naxçıvanski Fəhlə-Kəndli Qızıl Ordusunun Ali Hərbi Akademiyasının ali komandir heyəti kursunda əla oxuyurdu, demək olar ki, qoşun növlərinin strategiyasını mükəmməl öyrənmişdi. C.Naxçıvanski, sözün həqiqi mənasında, gözəl vətənpərvər komandir idi. Savadsız könüllülərdən nümunəvi, intizamlı ordu yaratmışdı. Onun səmərəli fəaliyyəti sayəsində sonralar Azərbaycan diviziyası Silahlı Qüvvələrimizin salnaməsinə parlaq səhifələr yazdı".*

C.Naxçıvanskinin istedadlı hərbi rəis kimi yetişməsində məşhur sərkərdələrdən Əliağa Şıxlinskinin və Səmədağa Mehmandarovun xüsusi xidmətləri olmuşdur. Onların köməyilə Azərbaycan diviziyasının atıcıları, topçuları və süvariləri Zaqafqaziya ordusunun taktiki-təlim məşğələlərində birinci yeri tutmuşlar.

Görkəmli sovet sərkərdələri M.V.Frunze, K.Y.Voroşilov, Y.F.Fabritsius bir hərbi rəis kimi C.Naxçıvanskinin şəxsiyyətinin formalaşmasına böyük təsir göstərmişlər. SSRİ Xalq Hərbi Dəniz komissarı və Hərbi İnqilab Şurasının sədri M.V.Frunze Bakıda olarkən Azərbaycan diviziyasının şəxsi heyətinin döyüş hazırlığını və onun komandiri C.Naxçıvanskinin xidmətlərini yüksək qiymətləndirmişdir. Məşhur general Fabritsius isə Azərbaycan dağ atıcı diviziyasının döyüş hazırlığı işini yoxladıqdan sonra yazmışdı: *"Diviziyanın fərdi hazırlıq işləri, ümumiyyətlə, kifayətləndirici səviyyədədir. Qış və yay təlimləri məhsuldar keçirilmişdir".*

On il fasiləsiz Azərbaycan diviziyasına komandirlik etdikdən sonra M.V.Frunze adına Hərbi Akademiyaya göndərilən C.Naxçıvanski akademiyanı əla qiymətlərlə qurtarmışdır.

C.Naxçıvanski istər hərbi akademiyada olduğu illərdə, istərsə də diviziyanın və ordunun taktiki məşğələlərində bir qayda olaraq öz dərin biliyini, istedadını, nümunəvi şəxsi keyfiyyətini, qayğıkeş və tələbkar sərkərdə olduğunu göstərə bilmişdir. Elə buna görə də 1933-cü ildə o, S.Orconikidzenin təklifi ilə akademiyada saxlanılmışdır.

1934-cü ildə akademiyanın rəisi B.M.Şapoşnikovun 17 fevral tarixli əmri ilə C.Naxçıvanski akademiyanın əsas fakültəsinin 2-ci kursunda Ümumi taktika kafedrasının rəhbəri təyin edilmişdir. Müəllimlərin və müdavimlərin qərargah əməliyyat oyununun hazırlanması, keçirilməsi və təhlil edilməsində yüksəkkeyfiyyətli işinə görə C.Naxçıvanskiyə təşəkkür elan edilmişdir. 1935-ci il 17 iyun tarixli əmrdə deyilir ki, Naxçıvanskinin rəhbərlik etdiyi 2-ci kursun müdavimləri döyüş hazırlığında diqqətəlayiq müvəffəqiyyətlər qazanmışlar. Xüsusi qeyd edilmişdir ki, döyüş hazırlığının keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlmişdir.

Dövlət arxivində Cəmşid Naxçıvanski ilə bağlı maraqlı sənədlərdən biri tarix elmləri namizədi mərhum Əli Əliyevin xatirələridir. O yazır: *"Mən 1926-1928-ci illərdə əlahiddə irtibat rotasında xidmət etmişəm. İlk dəfə Naxçıvanskini 1927-ci ildə diviziyanın Hacıkənd təlimində görmüşəm. Mən əsgərliyə bir il tez getmişdim. Əsgərlər arasında ən kiçiyi mən idim. O zaman Azərbaycan dağ atıcı diviziyası Zaqafqaziya diviziyaları içərisində birincilər sırasında gedərək böyük şöhrət qazanmışdı. Çünki diviziyaya Əliağa Şıxlinski, Səmədağa Mehmandarov, Cəmşid Naxçıvanski kimi görkəmli sərkərdələr komandanlıq edirdilər və hərbi rütbəyə malik generallar diviziyanın hərbi təlimlərinə xüsusi diqqət yetirirdilər...*

*...C.Naxçıvanskinin hərbi məharətini, hərbi taktiki qabiliyyətini 1927-ci ilin sentyabr ayında gördüm. Həmin ay başlanan hərbi təlim zamanı mən desant qrupunda iştirak edirdim. Yadımda deyil, bizi hansı sahilə çıxartdılar. Lakin hücuma Qaradağ-Səngəçal tərəfdən başladıq. Qaradağdan başlayaraq Volçi-Vorotayadək bütün ərazi hərbi təlim meydanı idi. Çiskin yağış yağırdı. Qərargahla rabitə yaratmaq çətin idi. Qərargah, səhv etmirəmsə, Bibiheybətə yaxın bir yerdə dayanmışdı. Təlim müvəffəqiyyətlə keçdi. Diviziyanın komandiri C.Naxçıvanski bizi hərarətlə qarşıladı, təbrik etdi. Belə qərara gəldilər ki, bütün diviziya Bakı şəhərindən keçsin. Komanda heyəti başda olmaqla, diviziya Çəmbərəkənddən enərək Azərbaycan KP MK-nın binasının qarşısından keçdi. MK-nın rəhbər işçiləri hərbi təlimi müvəffəqiyyətlə başa çatdıran diviziyanın döyüşçülərini hərarətlə təbrik etdilər.*

*C.Naxçıvanskini üçüncü dəfə 1933-cü ildə Moskvada gördüm. Mənim dostum Ələsgər Qasımov Qırmızı Professorlar İnstitutunda oxuyurdu. Onun yanına getmişdim. Ə.Qasımov "Novodeviçi" tərəfində institutun yataqxanasında yaşayırdı. Onun görüşündən qayıdarkən mən tramvaya oturdum, gördüm ki, bir qaraqaş, qarayağız hərbçi ayaq üstə durub hara isə gedir. Mən onu tanıdım. O, Azərbaycan diviziyasının keçmiş komandiri Cəmşid Naxçıvanski idi. Dərhal ayağa durub azərbaycanca salam verib yer göstərdim. C.Naxçıvanski mənə müraciət edərək:*

*– Siz məni haradan tanıyırsınız? – dedi.*

*Mən dedim ki, sizin komandir olduğunuz diviziyanın əlahiddə irtibat bölüyündə 1926-1928-ci illərdə xidmət etmişəm. Sizi dəfələrlə görmüşəm. Üç dəfə sizin komandanlığınız altında keçirilən ümumi diviziya təlimlərində iştirak etmişəm. Həm də biz həmyerliyik, naxçıvanlıyam.*

*Mən cəsarət edib ondan hara getdiyini soruşdum. Dedi ki, Hərbi Akademiyanı qurtarıb Leninqrad Hərbi Dairəsinin sərəncamına gedir. Moskvanın Kropatini prospektində biz görüşüb ayrıldıq".*

Bir neçə dəfə müxtəlif damğalarla həbs edilib qısa müddətdə azad edilməsinə baxmayaraq, 1938-ci il mayın 20-də general-mayor Cəmşid Naxçıvanskini yenidən həbs edirlər. 97 günlük ağır işgəncələrdən sonra SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən onun haqqında 26 avqust 1938-ci il tarixdə verilmiş ölüm hökmü yerinə yetirildi. O, Moskva şəhərinin yaxınlığında yerləşən "Kommunarka" adlı meşə massivindəki kütləvi qəbiristanlıqda dəfn edildi.

Cəmşid Naxçıvanski həyatdan çox tez getmişdir. O, cəmi 43 il yaşamış, ömrünün 26 ilini hərbi işə sərf etmişdir. Onun səyi və iştirakı ilə yaradılmış, möhkəmləndirilmiş Azərbaycan diviziyası öz döyüş ənənələrini davam etdirmiş və daha da zənginləşdirmişdir. Böyük Vətən müharibəsi illərində diviziya Xəzər sahilindən Baltik sahillərinədək şərəfli döyüş yolu keçmiş, Sovet Silahlı Qüvvələrinin salnaməsinə 77-ci "Qırmızı Bayraq" və "Suvorov" ordenli Simferopol atıcı diviziyası kimi daxil olmuşdur.

*Görkəmli sərkərdə, hərbi xadim Cəmşid Cəfərqulu xan oğlu Naxçıvanski və digər Naxçıvanskilər, Kəlbəlixanovlar, Kəngərlilərlə bağlı bir çox arxivlərdə, Moskva, Sankt-Peterburq, Gürcüstan, Azərbaycan və digər dövlət arxivlərində hələlik üzə çıxarılmamış sənədlər vardır. Həmin sənədlər canlı tarixdir və tədqiqatçılarını gözləyir.*

**Fəxrəddin CƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi, tarix üzrə elmlər doktoru***

## "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 fevral 2015-ci il tarixdə imzaladığı "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı milli-mədəni irsi qoruyub yaşatmağa və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasına xidmət edir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 25 iyul 2015-ci il tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər planına əsasən, muxtar respublikada silsilə tədbirlər keçirilir.

Belə tədbirlərdən biri Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində keçirilib. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir" mövzusunda keçirilən tədbirdə kitabxananın direktoru Həbib İmanov çıxış edərək ulu öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının təbliği və təşviqi istiqamətində gördüyü işlərdən danışıb. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edilib. Ümummilli liderin tapşırığı ilə ötən əsrin 70-ci illərində dastan əsasında bədii film çəkilib. 2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyinin təntənəli şəkildə keçirilməsi, "Kitabi-Dədə Qorqud" Ensiklopediyası"nın nəşr olunması dastanı dünya ictimaiyyətinə çatdırmaq istiqamətində görülən mühüm işlər sırasındadır.

Tədbirdə kitabxananın əməkdaşları Nəzakət Hüseynova, Gülnar Quliyeva və başqaları çıxış ediblər. Diqqətə çatdırılıb ki, Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri idealların tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olub.

**Xəbərlər şöbəsi**



**Müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli simalarından danışarkən bu məktəbin layiqli nümayəndəsi Vasif Adıgözəlovun yaradıcılığını xüsusilə qeyd etmək lazımdır. Musiqi mədəniyyətimizə möhtəşəm töhfələr verən Vasif Adıgözəlov bu gün də incəsənət xadimləri, musiqiçilər tərəfindən böyük minnətdarlıqla xatırlanır, əsərləri repertuarlardan düşmür.**

*Vasif Adıgözəlov – 80*

# Vasif Adıgözəlov musiqisi bu gün də yaşayır, sabah da yaşayacaq

Bu il görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, Əməkdar incəsənət xadimi, dövlət mükafatı laureatı, professor Vasif Zülfüqar oğlu Adıgözəlovun anadan olmasından 80 il ötür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Vasif Adıgözəlovun 80 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 11 fevral tarixli Sərəncamında deyilir: ***"Vasif Adıgözəlov Azərbaycanın zəngin musiqi sənəti salnaməsinə yeni səhifələr yazmış şəxsiyyətlərdəndir. Bəstəkarın xalq mahnıları və muğam ənənələri zəminində dünya musiqisinin mühüm nailiyyətlərindən bəhrələnməklə ayrı-ayrı janrlarda meydana gətirdiyi çoxsaylı əsərlər Azərbaycan xalqının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur".***

Vasif Adıgözəlovun 80 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 18 fevral tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib. Tədbirlər planında "Azərbaycan bəstəkarlığının inkişafında Vasif Adıgözəlovun rolu" mövzusunda konfransın keçirilməsi, görkəmli sənətkarın bəstəkar, pedaqoq və fəal ictimai xadim kimi hərtərəfli fəaliyyətinə həsr olunmuş tədbirlərin təşkili, tematik verilişlərin və qəzet materiallarının hazırlanması, musiqi məktəblərində bir dərs saatının Vasif Adıgözəlovun yaradıcılığına həsr olunması nəzərdə tutulub.

Vasif Adıgözəlov 1935-ci ildə Azərbaycan xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Zülfü Adıgözəlovun ailəsində dünyaya göz açmışdır. Kiçik yaşlarından atası və onun sənət dostlarından Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin və Xan Şuşinskinin ifa etdikləri muğam və təsniflər onda xalq musiqisinə hədsiz maraq oyatmışdır.

O, ilk musiqi təhsilini Bülbül adına musiqi məktəbində almış, 1953-cü ildə iki ixtisas üzrə Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Gənc musiqiçi bəstəkarlıq ixtisası üzrə Qara Qarayevdən təhsil almış, fortepiano ixtisasının sirlərini isə Simuzər Quliyevadan öyrənmişdir.

Hələ konservatoriyada oxuyarkən violonçel, skripka və fortepiano üçün bir sıra əsərlər yazmışdır. Tələbəlik illərində yazdığı "Qəhrəmanlıq" adlı simfonik poeması gənclərin və tələbələrin Moskvada keçirilən festivalında birinci dərəcəli diploma layiq görülmüşdür.

Həmin illərdə V.Adıgözəlov C.Məmmədquluzadənin "Ölülər" pyesi əsasında eyniadlı opera yazmağa başlamış və əsər 1963-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur.

Bəstəkarın yaradıcılığının əsas hissəsini simfonik janrda yazılmış əsərlər təşkil edir. Onun daha bir operası isə Xurşidbanu Natəvanın 170 illik yubileyinə həsr olunan "Natəvan" operasıdır.

Bəstəkarın Xurşidbanu Natəvanın sözlərinə yazdığı "Qərənfil" əsəri instrumental solo ifaçılığında ən çox müraciət olunan əsərdir. Vasif Adıgözəlov dörd simfoniyanın, altı instrumental konsertin, beş musiqili komediyanın, "Segah" simfonik muğamın və dörd oratoriyanın müəllifidir.

Vasif Adıgözəlovun xalq musiqi nümunələrindən yüksək bəstəkarlıq bacarığı ilə yararlanmış məzmunca milli, vətənpərvər ruhda olan əsərləri musiqi fondumuzun ən qiymətli nümunələridir. Müəllifin "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala", "Qəm karvanı" oratoriyaları da məhz bu ruhda yazılmış əsərlərdəndir.

Bəstəkarın "Odlar yurdu" oratoriyası 10 hissədən ibarətdir. Əsər Azərbaycan xalqının keçdiyi keşməkeşli yolu musiqinin dili ilə dinləyiciyə çatdırır, yaddaşları sanki yenidən oyadır, müasir nəslə onun keçmişini xatırladır.

"Qarabağ şikəstəsi" oratoriyasında qələbə, qətiyyət və inam ifadə edilir. Bu əsər daim insanları düşündürən, həyəcanlandıran bir yaradıcılıq nümunəsidir. Əsərdə Azərbaycan xalqının öz torpaqlarını igidliklə azad etməsi yüksək bəstəkarlıq bacarığı ilə tamaşaçıya çatdırılır.

"Çanaqqala" oratoriyasını V.Adıgözəlov yaradıcılığının zirvəsi saymaq olar. 1915-ci ildə Türkiyədə baş verən tarixi hadisəyə həsr edilmiş bu əsər türk xalqının cəsarətli oğlu Atatürkün xarici ölkələrin istilaçılarına qarşı mübarizəsindən və onun rəhbərliyi ilə müstəqil Türkiyə Respublikası yaradılmasından bəhs edilir. "Çanaqqala" oratoriyasını türk ruhunun yenilməzliyini əks etdirən musiqi abidəsi kimi qiymətləndirmək olar.

Bəstəkarın "Qəm karvanı" oratoriyası bədii konsepsiyası və estetik qayəsinə görə rekviyem və memorial xarakter daşıyır. Vasif Adıgözəlovun kino musiqisi öz janr müxtəlifliyi ilə seçilir. Bu filmlərin içərisində bədii, sənədli, cizgi və musiqili filmlər vardır. Bütün bunlar sənətkarın özünüifadə bacarığını göstərir. "Balaca çoban" (cizgi filmi), "Aktrisanın təbəssümü", "Cazibə qüvvəsi", "Hər şey olduğu kimi – Əminə Dilbazi", "Xidmət lifti", "Həyat bizi sınayır", "Kişi sözü", "Qəribə əhvalat", "Lahıc", "Mahnı qanadlarında", "Məhəbbət oratoriyası", "Skripkanın sərgüzəşti", "Şərikli çörək", "Zülfü ocağı" və sair kimi filmlər maraqlı kompozisiyalarla yaddaşlara həkk olunmuşdur. Kinoşünaslar hər bir filmin uğurlu olmasında musiqinin rolunu yüksək qiymətləndirirlər. Bu filmlərin hər birinin sevilməsində görkəmli bəstəkarın yaradıcılıq zəhmətini görürük. Xüsusilə uşaqlar üçün çəkilmiş "Balaca çoban", "Skripkanın sərgüzəşti", "Şərikli çörək" filmlərinin melodiyaları insanı vəcdə gətirir. Hamımızın dəfələrlə baxdığımız "Şərikli çörək" filmində uşaqların yaşadıqları çətin həyatı öz musiqisi ilə ifadə edən Vasif Adıgözəlov insanı düşündürə bilir. Əbədi çətinlik, fərəhsiz günlər ola bilməz, qarşıda gözəl günlər durur. Bütün bunları bəstəkar filmdə öz musiqi dili ilə deyir və aşılayır.

Vasif Adıgözəlovun mahnıları bu gün də sevilə-sevilə ifa olunur. Bəstəkarın "Bakı", "Təkcə səndən xoşum gəlir", "Mən gəzirəm hər yanı", "Gözləməsin, neyləsin?", "Şuşam", "Qərənfil", "Naz-naz", "Unutdu məni", "Şair, nə tez qocaldın" və başqa mahnıları hamımızın sevdiyi nəğmələrdir. Bəstəkarın sözlərinə musiqi yazdığı şairlər də çoxdur.

Görkəmli bəstəkarın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 1973-cü ildə "Əməkdar incəsənət xadimi", 1989-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 1980-ci ildən professor kimi gənc musiqiçilərin yetişməsində böyük rolu olan bəstəkar 1990-cı ildə Dövlət mükafatı laureatı olub. V.Adıgözəlov 1995-ci ildə "Şöhrət", 2006-cı ildə "İstiqlal" ordenləri ilə təltif edilib. Görkəmli bəstəkar 2006-cı il sentyabr ayının 9-da vəfat edib.

Adıgözəlovlar nəsli Azərbaycan musiqisinə Zülfü Adıgözəlov, Vasif Adıgözəlov, Rauf Adıgözəlov kimi görkəmli simalar bəxş edib. Bu gün bəstəkarın oğlu Yalçın Adıgözəlov bu nəslin yolunu layiqincə davam etdirir.

*Zəngin sənət ömrü yaşamış və daim xalqına bağlı olan Vasif Adıgözəlovun musiqisi bu gün də insanlara vətənpərvərlik, sevinc, inam, sevgi duyğuları bəxş edir. Bu mənada, sənətkar bu gün də bizim müasirimizdir. Onun musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri daim xatırlanır.*

**Bənövşə RZAYEVA**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***

*Yurdumuzu tanıyaq və tanıdaq*

# Şahbuzda turizm mövsümüdür







*Müasir turizm, hər şeydən əvvəl, səyahətsevərlərin asudə vaxtının mənalı keçirilməsi, daha ucuz qiymətlərlə daha çox rekreasiya xidmətlərindən istifadə olunması və əhalinin bütün təbəqələrinin turizmə cəlb edilməsi tezisləri ilə xarakterizə olunur. Aktiv səyahətlər sonunda müxtəlif turlarda iştirak edən turistlər bu yolla ziyarət etdikləri məkanlardan aldıqları təəssüratlarla, bir növ, özünümükafatı da təmin etmiş olurlar. Belə ki, səyahətə çıxdıqda təbiətlə birbaşa ünsiyyət, tarixi zənginliklərlə canlı tanışlıq və qonaqpərvərliklə qarşılanmaqdan alınan mənəvi zövq bu tələbatın insanın özü tərəfindən ödənilməsinə imkan yaradır. Bu baxımdan Şahbuz rayonu ideal məkanlardan biridir. Bu füsunkar bölgəmizdə mövcud olan turizm ehtiyatlarının cazibə gücünə və rayonun müasir inkişaf mənzərəsinə baxdıqda buradakı hər bir turistdə lazımi emosiyanı yarada biləcək mənbələri görmək olar. Şahbuza, onun kəndlərinə gələn qonaqlar üçün ekoturizm, kənd-yaşıl, tibbi-sağlamlıq, fotoovçuluq, kamp, habelə mədəni-tanışlıq turizmi üçün yaxşı imkanlar vardır.*

Şahbuza bir bələdçi gözü ilə nəzər salaq: Şahbuz Naxçıvan Muxtar Respublikasının şimalında, dağlıq və dağətəyi ərazidə yerləşir. Rayonun, demək olar ki, bütün ərazisi bol sulu olub, iti axan dağ çayları və füsunkar təbii yaşıllıqlarla əhatələnmişdir. Havası çox təmiz və yayda sərin, qışda mülayimdir. Rayonda bir şəhər, bir qəsəbə və 23 kənd vardır. Şahbuz şəhəri və Badamlı qəsəbəsi ilə yanaşı, Kolanı, Kükü, Biçənək, Badamlı, Külüs kəndləri rayonun iri yaşayış məntəqələrindəndir. Bütün kəndlər müasir yol və digər sosial infrastruktur şəraiti ilə təmin olunmuşdur. Şahbuzu üzük qaşı kimi dövrəyə alan sıra dağların Salvartı, Kükündağ, Keçəldağ kimi hündürlüyü 3 min metrdən yüksək olan zirvələri vardır. Yaşıl libaslı məşhur Batabat meşəsi və gözəl mənzərəli Biçənək dağ aşırımı da Şahbuzdadır. Bu rayon özünün mineral bulaqları və müalicəvi dərman bitkiləri ilə təkcə ölkəmizdə deyil, bütün Cənubi Qafqaz regionunda yaxşı tanınır. Dərələyəz silsiləsinin cənub yamacları, Kükündağ, Qanlıgöl və Batabatda rast gəlinən çox sayda nadir bitki, kol və ağac nümunələri özünün müalicəvi xüsusiyyətləri ilə hələ on illər öncəsindən ölkəmizdə və xaricdə yaxşı tanınıb. Şahbuzda geniş panoramalı dağlıq relyef, atmosferin təmizliyi və diqqətlə qorunan biomüxtəliflik burada fotoovçuluğun, elmi-müşahidə turizminin və ekoturizmin müxtəlif növləri üçün geniş imkanlar açır.

Bütün bunlar və yaradılmış müasir turizm infrastrukturu əsasında Şahbuz rayonuna gəlmiş turistlərin mənalı istirahəti üçün müxtəlif istiqamətlərdə turlar təşkil etmək mümkündür. Çox geniş yayılmış kənd turizmi üçün rayonun bütün kəndlərində müasir tələblərə çata bilən normal şərait vardır. Mövcud sosial infrastruktur, əhalinin həyat səviyyəsinin və məşğulluğunun yüksəlməsi nəticəsində komfortlu həyat tərzinə keçid də sürətlənir ki, bu da, xüsusən isti yay günlərində öz tətilini sərin-səfalı Şahbuz kəndlərində keçirmək istəyənlərin sayını artırır. İndi çoxumuz uzaq məsafələrə səyahət edən turistlərə təklif olunan bəzi xidmətlərin, xüsusən nəqliyyat xidmətinin qiymətlərindən gileylənsək də, bir faktı da göstərək ki, hazırda xaricə səfər edən iki nəfərin bir həftəlik istirahəti qiymətinə çox da uzağa getmədən, Şahbuz kəndlərinin birindəki müasir evlərdə yerləşməklə dörd nəfərlik bir ailənin az qala bir ay müddətində istirahət etməsi mümkündür. Üstəgəl, istirahət üçün kəndə gəlmiş uşaqları yeni dostlar, təbiətin qucağında əyləncələr, bol meyvə və bir də kəndin nağıl kimi təsərrüfat həyatı ilə tanışlıq gözləyir.

Şahbuzda turizm deyərkən səyahətsevərlərin yadına ilk olaraq Batabat yaylağı, onun ətraf gözəllikləri düşür. Ancaq gəlin tələsmədən, bir az geri qayıdıb hələ Naxçıvan şəhərindən başlayan yolumuza bir də nəzər salaq. Şahbuza gələrkən Heydər Əliyev Su Anbarına çatar-çatmaz Salvartının zirvəsindən üzüaşağı heyrətamiz bir mənzərə açılır. Bir yandan da yayın bu istisində hamar asfaltla sürətlə irəliləyən avtomobilin şüşəsindən içəri dolan sərin dağ havası şəhərdəki istini bircə anda unutdurur. Məhz bundan sonra su anbarının ətrafındakı kölgəliklərdə balıq tutub istirahət etmək, yaxud Batabat yolu üzərindəki müasir İşgəsu restoranında ləzzətli təamlardan dadmaq mümkündür. Şahbuzda zaman çox sürətlə keçəcək. Çünki ətrafınızda görməli yerlərlə tanış olmaq istəyən çox sayda digər dost-tanışlarınız da mütləq olacaqdır.

Şahbuz şəhərindən rayonun müxtəlif istiqamətlərindəki marşrutlar üzrə yola çıxdıqda turistləri çox sayda qeyri-adi mənzərələr və zənginliklərlə tanış etmək mümkündür. Adi sərnişin kimi indi Şahbuzdan rayonun böyük kəndlərindən biri olan Küküyə qədər cəmisi 12 kilometr məsafəni lüks avtomobillə 15-20 dəqiqəyə getmək mümkündür. Ancaq bu istiqamətdə tanışlıq məqsədilə təkcə yolboyu səyahətimiz bir neçə saat da çəkə bilər. Misal üçün, Şahbuz şəhərindəki təmiz və səliqəli mehmanxanada gecələyib səhər sübhdən bu istiqamətdə yola çıxsaq, Qızıl Qışlağa çatmamış asfaltın lap kənarından axan iti çaydan su içməyə enmiş vəhşi dağ keçilərinin ürkək baxışlarına nə qədər desən tamaşa etməyə dəyər. Əgər üzərinizdə fotoaparat da varsa, buradan çəkə biləcəyiniz kadrlar səyahətdən qayıdanda sosial şəbəkədəki dostlarınız üçün ən heyrətamiz sürpriz, Şahbuza edilmiş səyahətdən sonra ən yaddaqalan təəssüratlardan biri olacaqdır. Bir çıqqıltıdan sonra dağ keçilərinin ildırım sürətilə yoxuşlanıb yox olduğu qayalıqlardan pırıltı ilə qalxan kəkliklərin qaqqıltısı isə bu günə qədər eşidilməmiş bir nəğmə kimi uzun müddət qulaqlarınızda səslənəcəkdir. Xülasə, belə gözəl etüdlərlə Şahbuzun Qızıl Qışlaq-Kükü, Batabat, Badamlı, Külüs-Keçili, Ağbulaq-Gömür, Nursu istiqamətlərində də bir-birindən bənzərsiz təbiət gözəllikləri, unikal fauna və flora nümunələri ilə turistləri heyrətləndirmək mümkündür.

Muxtar respublikamızda müasir turizm infrastrukturu yaradılması baxımından Şahbuzdakı Ağbulaq İstirahət Mərkəzini xüsusilə qeyd etmək lazımdır. Bu mərkəzin əhəmiyyətini təkcə burada təklif olunan rekreasiya xidmətləri ilə məhdudlaşdırmaq düzgün olmazdı. Artıq neçə ildir ki, fəaliyyətdə olan Ağbulaq İstirahət Mərkəzi muxtar respublikada həyata keçirilən sosial layihələrin də bir mərkəzi halına gəlmişdir. Belə ki, mərkəzin yaradılmasını təkcə Ağbulaq və Gömür kəndlərinin əhalisinin təsərrüfatı, gənclərin məşğulluğu baxımından deyil, həm də ilin müxtəlif fəsillərində öz asudə vaxtını səmərəli keçirən məktəbli gənclərin ekoloji tərbiyəsi və müxtəlif həssas əhali qruplarının zəruri tələbatlarının ödənilməsi baxımından da uğurlu layihə saymaq olar.

*Beləliklə, Şahbuza gələn turistlərə hələ Batabata çatmadan günlərlə sürəcək elə bir maraqlı tur kompozisiyaları təklif etmək mümkündür ki, bununla onlar dünyanın cənnət yerini heç uzaqda deyil, Naxçıvanın özündə axtarmalı olduqlarına bir daha inansınlar.*

**Əli CABBAROV**



# Onlar burada özlərini tənha hiss etmirlər...

*Bu yazını hazırlayarkən nədən və haradan başlamaq barədə xeyli düşünməli oldum. Adətən, yazılarımı öncədən planlaşdırmıram, yazıya başlayarkən qələm əlimdə kağızın üzərində sanki öz-özünə hərəkət edir. Ancaq bəhs edəcəyim ünvanda yaşadığım təəssüratları olduğu kimi oxucuya necə çatdırmalıyam? Bax, bu sualın cavabını tapmaq yazmağa başlayanda mənim üçün ən çətin və cavabsız suallardan biri olur. Yəqin ki, bir çoxlarının ahıl yaşını düşünmək ağlına belə gəlməyib. Gəlin etiraf edək ki, ahıl yaşda harada olacağıq, gecə-gündüz beşiyi başında yarpaq kimi əsdiyimiz, böyüdüb boya-başa çatdırdığımız övladlarımız yanımızda olacaqmı? – sualı yəqin ki, yüzümüzdən birini düşündürə, ya yox. Bunda qeyri-adi heç nə yoxdur. İnsan yaranışdan bəri belədir. Sağlam olduğu zaman xəstəliyi düşünmür, cavanlığında qocalığı, ailəsi, övladları, çoxlu dost-tanışları olanda tənhalığı.*

Taleyə, qismətə inanan adam olmamışam. Alın yazısını, qisməti də elə-belə məfhumlar kimi qəbul etmişəm. Düşünmüşəm ki, insan özü öz hərəkətləriylə öz taleyini yaradır, alın yazısını yazır. Amma ömrünün payız fəslini yaşayan qocaman çinarlarla –ahıl insanlarla bağlı yazını qələmə almağa başlayanda bu haqda bir az düşünməli oldum. Çünki barələrində yazacağım insanların bir çoxu tənhalığı seçməyib, sadəcə, bu, belə alınıb. Etiraf edim ki, bu haqda yazmaq ağrılıdır, hələ də özünü gənc sayan mənim üçün çətindir. Bircə təsəllim var ki, mövzum cəmiyyətə gərəkli mövzudur. Yəqin ki, təxmin etmisiniz. Budəfəki yazımız ahıllar haqqındadır.

…Bəzi ahıl insanlar əhatələrində yüzlərlə insanın olduğunu görsələr də, özlərini tənha hiss edirlər. Bu, ondan irəli gəlir ki, belələri daha yaxın münasibətə, ünsiyyətə, dəstəyə, başqaları tərəfindən başa düşülməyə ehtiyac duyurlar. Kimi bu dövrü rahat keçirir, ətrafdakılara əziyyət vermir, kimisi isə bunu açıq-aşkar büruzə verir, əzab çəkdiyi, özünə yer tapmadığı açıq-aydın görünür. Ancaq bu, çox da uzun sürmür. Bu, həmin ahılın özünün arzu etdiyi tənhalıqdır. Ahıl insanın məcburi tənhalığı isə başqadır. Ahıl insan özü də istəmədən həyat onu tənhalığa sürükləyir, axşam süfrəsi ətrafında oturanı, xəstələnəndə qayğısını çəkən olmur. Haqqında danışacağım insanlar da, bu mənada, məcburi tənha ahıllardır. Ancaq təsəlliləri var. O da bundan ibarətdir ki, dövlət onları tənhalığın məngənəsində sıxılmağa qoymayıb, hər zaman yanlarında olub, dilbər guşəmiz olan Şahbuz şəhərində belələrinə isti yuva rolunu oynayan Ahıllar Evini onların ixtiyarına verib.

Bu ünvandan reportaj hazırlamaq çoxdankı arzum olub. Ancaq bu məkanın qapısından içəriyə doğru bir addım atdıqdan, buradakı ahıl insanlarla tanışlığımdan sonra bu yazının nə qədər çətin hasilə gələcəyini anladım. Çünki onlarla söhbət zamanı ahıl insanların hər birinin dünyaya baxışının, düşüncələrinin sirli-sehrli, əsrarəngiz bir aləm, xatirələrinin bir kitab, xəyallarının əngin dəryalar, ümmanlar qədər olduğunu gördüm. Açığını deyim ki, bu, məndə reportajı tam əhatə edə bilməyəcəyim qorxusunu yaratdı. Çünki bura hərəni bir problem gətirib, kimi mənəvi ehtiyac, kimi tənhalıq, kimi də elə yaxınlarının soyuq münasibəti üzündən qulaq yoldaşı, sirdaş tapmaq ümidilə Ahıllar Evinə üz tutub. Bəlkə də, buna görədir ki, nə qədər şən görünməyə çalışsalar da, bizə doğru baxan gözlərdə kədəri, qəmi, illərin acısını-şirinini hiss etməmək, duymamaq mümkün deyil. Ahıl insanları anlamaq üçün onlarla söhbət etməyə ehtiyac yoxdu. Onlar hərəkətləri, davranışları ilə danışırdılar. Onlara ünvanlayacağım bəzi sualların cavabını, əsl həqiqəti özüm yaxşı bilirdim. Bilirdim ki, "necəsiz?" – deyə soruşsam, "yaxşıyıq" – deyə cavab verəcəklər. "Darıxmırsız ki?" – sualının cavabı da gözlədiyim kimi olacaq. Ancaq onların heç biri ahıl yaşında bu məkana üz tutmağının əsl səbəbini açıqlamayacaq, bunda övladlarını, yaxınlarını günahlandırmayacaq, "özüm buranı seçmişəm", – deyəcək. Bircə hamının "nənə" deyə çağırdığı adını çəkmək istəmədiyim bir qadından başqa.

Onunla pilləkənlərdə qarşılaşdıq. Ağ qıvrım saçları alnına tökülmüş nənə tez-tez Ahıllar Evinin işçilərinə "bu gün gəlib məni aparacaqlar", – deyirdi. Bunu eşidəndə çox sevinmişdim. Ona görə sevinmişdim ki, nə yaxşı hansısa bir övladın yatan vicdanı oyanıb, anasını öz evinə, nəvələrinin yanına aparmaq üçün gəlib. Gəlib ki, " Günahkaram, bağışla məni", – deyib onu yenə öz süfrəsinin baş tərəfində oturtsun, uzun qış gecələrində nənə öz nəvələrinə nağıllar desin, xeyirdə-şərdə yenə ön sırada yer alsın. Burada onun nə qədər qayğısına qalsalar da, o, öz evini arzulayır, evində yaşamaq istəyir. Deyir ki, son mənzilə buradan yox, öz evimdən getmək istəyirəm. Övladlarım gec-tez məni evimə aparacaqlar.





Burada ömrünün 14 ilini keçirən Tamara Abdullayeva Bakı şəhərindəndir. İxtisasca jurnalistdir. İki oğlu, bir qızı, 8 nəvəsi var. Deyir ki, yoldaşı rəhmətə gedəndə qayınata evində qala bilməyəcəyini görüb övladlarını da yanına alıb çıxıb. Həyat yoldaşının ata evinə bir də övladı ailə qurarkən qayıdıb, ancaq orada çox qalmayıb. Nədənsə, bu evdə bir onunçün yer darlıq edib. O da Ahıllar Evində qalmağa qərar verib. Burada işləyənlərin onlara əsl övlad münasibəti göstərdiyini bildirdi: "Bizə burada gözəl xidmət göstərirlər, normal yaşayırıq. Buna görə dövlətimizdən çox razıyıq. Hansı məsələ ilə bağlı müraciət etsək, Ülviyyə xanım və işçiləri bizə kömək edir".

Evin ziyalı ahıllarından olan Şərur rayonunun Tumaslı kənd sakini Məhərrəm İbrahimov kənd məktəbində tarix müəllimi işləyib. 2008-ci ildən Ahıllar Evində yaşamağa qərar verib. Nədənsə, burada olmasının səbəbi haqda danışmağa çətinlik çəkir. Bu nəcib insanın atdığı addım, əslində, bütün valideynlər üçün fədakarlıq nümunəsi sayıla bilər. O, əl arabasına məhkum oğlunu çox çətinliklə də olsa, ev-eşik sahibi edə bilib. Ancaq oğlu ailə qurduqdan sonra ailədə problemlər yaşanıb. O da evdən heç bir şey götürməyərək pensiya kartını belə, oğluna verərək çıxıb...

Bu məkanın daha bir sakini Əşrəf Zeynalov Şərur rayonunun Aşağı Yaycı kəndindəndir. 65 yaşı olan Əşrəf dayı maraqlı həmsöhbətdir. Deyir ki, 5 övladım var. Hamısı Bakıda yaşayır. Ancaq bilirəm ki, kirayədə yaşayırlar, çətinlik çəkirlər. Məni yanlarına çağırmağa imkanları yoxdur. Ancaq çağırsalar belə, getmək istəmərəm. Mənim üçün Naxçıvan torpağı ilk və son mənzilimdi. Ona görə də onlardan incimirəm.



Buraya qədər mənə bələdçilik edən Ahıllar Evinin direktoru Ülviyyə xanımdan ayrılıb ahılların asudə vaxtlarında tez-tez üz tutduğu kitabxanaya və istirahət otağına baş çəkirəm. İstirahət otağında dincələn Əmirxan Rüstəmov Şəki şəhərindəndir. 80 yaşlı Əmirxan dayı 7 ildir, buradadır. Tale elə gətirib ki, ailə qura bilməyib, uzun illər həbsxana həyatı yaşayıb. Həbsxanadan çıxdıqdan sonra onun üz tutacağı ünvan olmadığından dövlətimiz ona sahib çıxıb. Əmirxan dayı gəlişindən də, yaradılan şəraitdən də razıdır: "Həddindən artıq razıyam. Burada hər kəs özünü öz evindəki kimi rahat hiss edir".

Həqiqətən də, Ahıllar Evində yaradılan şərait yüksək səviyyədədir. Otaqlar təmiz, səliqəli, istirahət guşələri rahatdır. Kitabxana, idman guşəsi, tibbi xidmət 24 saat sakinlərin ixtiyarındadır. Ümumiyyətlə, söhbət etdiyim bütün sakinlər yaradılan şəraitdən razılıqla danışdılar. Ancaq Ahıllar Evindən ayrılanda bir şeyi də anladım ki, onlar nə qədər təmin olunsalar da, nə qədər rahat şəraitdə yaşasalar da, bir yaxın adamdan eşidəcəkləri xoş sözə, doğma nəfəsə möhtacdırlar.

11 ildir, Ahıllar Evində yaşayan, ana dili olan rusca ilə bərabər, fransız, alman, Azərbaycan dillərini mükəmməl bilən Violetta Çernışeva ilə söhbət etmək bizə kitabxanada qismət olur. Kitabxananın daimi oxucularından olan həmsöhbətim bizi görüb yazıçı Vidadi Babanlının "Vicdan susanda" kitabını səliqə ilə qatlayıb bir kənara qoyur. Deyir ki, hər bir insanın səhər yuxudan oyananda ilk işi aynaya baxmaq, özünü səliqəyə salmaq olur. Kaş ki bu aynalar insanların vicdanlarındakı əyər-əskiklikləri də göstərə biləydi. O zaman bu dünyada hər şey başqa cür olardı. Həqiqətən də, əgər bir insanın vicdanı ətrafda baş verənlərə qarşı susmuşsa, ondan heç bir müsbət keyfiyyət gözləmək olmaz. Təəssüf ki, buradakı insanların əksəriyyəti susan vicdanların qurbanlarıdır.

*…Yazım burada başa çatır. Ancaq hiss edirəm ki, bu məsələyə ictimai diqqətin artırılmasında bir jurnalist kimi peşə borcum, insanlıq, övladlıq, vətəndaşlıq borcum buradan başlayır. Əlim qələm tutduqca bu borcu "qaytarmağa" çalışacağam. Ahıllarımıza soyuqqanlı yanaşanlara, buna birbaşa səbəbkar olan övladlara, qardaş-bacılara demək istəyirəm ki, ömrünüzdə bir dəfə vicdan duyğusunu hiss etmək istəyirsinizsə, tənhalarımıza baş çəkin. Onların qayğıları ilə maraqlanın. Yalnız onda özünüzü əsl insan kimi hiss edə bilərsiniz. Unutmamalıyıq ki, bu gün biz öz valideynlərimizlə necə davranırıqsa, övladlarımız da sabah bizimlə elə davranacaqlar.*

**Səbuhi HÜSEYNOV**

---

*Yeni nəşrlər*

# İnancların poetikası

***Bu yaxınlarda Azərbaycan Yazıçılar Birliyinin üzvü, dosent Rafiq Babayevin "İnancların poetikası" monoqrafiyası nəşr edilib. Azərbaycan folklorunun aktual problemlərindən birinə həsr olunan tədqiqat əsərində xalq arasında geniş yayılan inancların strukturu araşdırılıb, obrazlar təhlil edilib, onlara məkan və zaman kontekstində yanaşılaraq janrın imkanları üzə çıxarılıb. Tədqiqatçı araşdırmalara əsaslanaraq inanclarda əks olunan obrazların mifoloji mahiyyətini aça bilib, onun mifoloji təsəvvürlərdəki yerini müəyyənləşdirib.***




Son on il ərzində Azərbaycan folklorunun tədqiqi ilə bağlı xeyli monoqrafiya və məqalələr yazılsa da, bu sahədə hələ də boşluqlar qalmaqdadır. Rafiq Babayevin monoqrafiyası məhz bu boşluqları dolduran əsərlərdən biridir.

Qeyd etdiyimiz kimi, tədqiqatçının araşdırdığı inanclarda əks olunan obrazlar Azərbaycan xalqının mifoloji düşüncəsi kontekstindən təhlil edilib. Belə obrazlardan biri "Fatma nənə", bəzən isə "Qarı nənə" adı ilə tanınan obrazdır. Əsərdə Fatma nənənin adı ilə bağlı məfhumların mifoloji funksiyası araşdırılmaqla bərabər, bu obrazın türk xalqlarının folklorundakı yeri də aydınlaşdırılıb. Obrazın özbək və taciklərdə "Fatma bibi", türkmənlərdə "Bibi Fatma", qırğızlarda "Batuma Zuura" adlanması onun bütün türkdilli xalqların folkloru üçün xarakterik olduğunu göstərir. Müəllif müxtəlif türk xalqlarının inanc mətnlərində saxlanan izlərlə bu obraza məxsus funksiyanın müxtəlif cəhətlərini bərpa edə bilib, obyektlərin transformativ xüsusiyyəti əsərdə xüsusilə qabardılıb. Fatma nənənin hanası (göyqurşağı) altından keçən qızın oğlana, oğlanın qıza çevrilməsi, yaxud Fatma nənənin toxunduğu xəstənin sağalması məhz belə xüsusiyyətlərdəndir. Ümumiyyətlə, bu tip çevrilmələr Azərbaycan folkloru, xüsusilə mifoloji mətnlər üçün xarakterikdir.

Monoqrafiyada inanclarda əks olunan hadisələrin müəyyən məkan və zaman kontekstində baş verməsi ilə bağlı məsələlər də araşdırılıb. Bu mətnlərdə "bu dünya" və "o biri dünya" anlayışları aydın şəkildə izah olunub. Məlumdur ki, ən qədim inanclarda mifoloji dünya bu dünya və o biri dünya şəklində təsəvvür edilib. Dünyanın üçqatlı quruluşu ilə bağlı inanclar, yəni tanrıların, insanların və ölülərin yaşadığı dünyalar daha sonra formalaşıb. Bu baxımdan müəllifin "Kitabi-Dədə Qorqud"dan gətirdiyi parçalar dünyanın quruluşu ilə bağlı ən qədim təsəvvürləri əks etdirir və eyni zamanda dastanın qədimliyinə işarə edir.

Araşdırmalar göstərir ki, folklor nümunələrindəki mifoloji obrazların funksiyası kosmik dünya modeli sistemindəki mövqeyi ilə müəyyən edilir. Bu obrazların xarakterindəki ziddiyyətlər onların mifoloji səciyyəsi və funksiyası ilə bağlıdır.

Rafiq Babayevin yeni nəşr olunan monoqrafiyası Azərbaycan folklorunda əks olunan, müəyyən məkan və zaman daxilində fəaliyyət göstərən mifoloji obrazların araşdırılması sahəsində dəyərli əsərlərdən biri olmaqla ümumtürk mifologiyasının öyrənilməsi üçün də əhəmiyyətlidir. Belə hesab edirik ki, bu uğurlu tədqiqat əsəri ədəbiyyatşünaslarımızın stolüstü kitablarından biri olacaqdır.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

---

***İtmişdir***

Naxçıvan şəhəri, 6-cı məhəllə, ev 1$^{B}$-də yaşayan Nəcəfov Nizami Tarverdi oğlunun adına olan 9883 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

---

**ŞƏRQ qapısı**

**Baş redaktor əvəzi:**
**MUXTAR MƏMMƏDOV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Rauf Əliyev**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 593**